**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**PƏRVİN ƏLƏMDAR qızı NURƏLİYEVA**

# ANAR NƏSRİNDƏ TALE VƏ ZAMAN KATAKLİZMLƏRİ AXARINDA DƏYİŞƏN VƏ DƏYİŞMƏYƏN İNSAN

**5716.01 – Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Himalay Ənvər oğlu Qasımov**,
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Rüstəm Kamal oğlu Rəsulov**
filologiya üzrə elmlər doktoru, professor

**Rafiq Yusif oğlu Əliyev**
filologiya üzrə elmlər doktoru, professor

**Aparıcı təşkilat:** **Azərbaycan Dillər Universitetinin Azərbaycan dil və ədəbiyyatı kafedrası**

Müdafiə "____"__________ 2017 – ci ildə saat ____ - da Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyaların müdafiəsini keçirən D.01.131 - Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı IV mərtəbə.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "____"___________ 2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə fəlsəfə doktoru:** **İsmixan Məhəmməd oğlu Osmanlı**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Altmışıncı illər ədəbiyyatının yaradıcılarından və ən istedadlı nümayəmdələrindən biri də Anardır. O, yaradıcılığa başladığı ilk vaxtlardan ədəbi prosesin mərkəzində olmuş, fitri istedadı, zəhmətsevərliyi, geniş mütaliə və erudisiyası onun, belə demək mümkünsə, tez "böyüməsi"nə, püxtələşməsinə, erkən yaşlarından ciddi əsərlər qələmə almasına səbəb olmuşdur.

Anarın müraciət etdiyi mövzular bəşəridir, dünyəvidir. İnsana aid çeşidli problemlər, insan həyatının müxtəlif baxış bucaqlarından təsviri milli kimliyindən, dilindən, dini mənsubiyyətindən asılı olmayaraq hər kəsə aid edilə bilər. Ədəbiyyatşünas Yaşar Qarayevin də vurğuladığı kimi, Anarın "Qlobal dünyagörüşü və planetar təfəkkürü artıq hər cür fəlsəfi və sosial problemlərə vahid bir məcrada – bəşərin və planetin taleyi müstəvisində baxır. Məhz bu, bizim günlərdə "həqiqət axtarışının" xüsusiyyətini təşkil edir və Anarın bu günki nəsri də həmin xüsusiyyətlə aşılanır"[1]. Amma, Anar nəsrindəki unikallıq həm də ondan ibarətdir ki, yazıçı bu problemləri, mövzuları Azərbaycan insanının, türk qövmünün timsalında təsvir və təqdim edir. Onun əsərləri bu aspektləri ilə ilk növbədə milli-mənəvi dəyərlərin daşıyıcısı missiyasını yerinə yetirmiş olur.

Özünə ustad hesab etdiyi Cəlil Məmmədquluzadə irsinə müraciəti və ondan bəhrələnməsi, şübhəsiz, yazıçının yaradıcılıq amalına birbaşa təsir etmişdir. Onun "Molla Nəsrəddin - 66", "Molla Nəsrəddin - 86", "Ürəyim ağrıyır" və bəzi digər əsərlərində dahi Mirzə Cəlildən təsirlənməsi aşkar görünür. Bundan əlavə Anar Mirzə Cəlilin beş hekayəsi əsasında "Nigarançılıq" tele-pyesini, eyni zamanda Mirzə Cəlil haqqında "Qəm pəncərəsi" bədii filminin ssenrasini də yazmış və filmə özü də rejissorluq etmişdir. Anar istər bu əsərlərində, istərsə də yaradıcılığının sonrakı dövrlərində yazdığı əsərlərində milli-mənəvi dəyərlərimizi, adət ənənələrimizi, millətimizin tarixini sadə insanların həyatında, məişətində əks etdirir.

"Həqiqət axtarışı" Anarın ilk qələm təcrübələrindən başlayır və müstəqillik qazanıldıqdan sonra yazdığı "Otel otağı", "Vahimə", "Ağ qoç, qara qoç", "Göz muncuğu" kimi irihəcmli, ictimai-sosial problemləri əks etdirən əsərlərində də nəzərə çarpır. İnsanın zamanla üz-üzə durması, mühitin insana təsiri, onun xarakterini, dünyaya baxışlarını yönləndirməsi, həmçinin tarixi hadisələrin sadə adamların həyatında, taleyində əksi, bir sözlə insanla zamanın vəhdətdə "yaşaması" Anar nəsrinin ehtiva etdiyi və

---

[1] Qarayev Yaşar. Ağ limandan başlanan yol// Anar. Seçilmiş əsərləri: 2 cilddə, I c., Bakı: Azərnəşr, 1988, s.3

anlatmaq istədiyi başlıca məsələlərdir.

Anarın həm bədii yaradıcılığı, həm də ictimai-siyasi fəaliyyəti milli-mənəvi dəyərlərin – dilimizin, tariximizin, mədəniyyətimizin qorunması və tərəqqisinə yönəlib. Anar əsərlərində öz dövrünün ən əhəmiyyətli, ağrılı problemlərinə toxunub. Azərbaycanın qədim və müasir tarixi, mədəniyyəti və ədəbiyyatı onun yaradıcılığında öz əksini tapıb. Bütün bunlar Anar yaradıcılığının çağımızda əhəmiyyəti və aktuallığını şərtləndirən amillərdir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiya işinin əsas məqsədi Anarın çoxşaxəli və zəngin yaradıcılığının geniş bir sahəsini təşkil edən nəsrində insanın tale və zaman kataklizmləri axarında dəyişib-dəyişməməsinin səbəblərini, eləcə də yazıçının dil və üslub xüsusiyyətlərini, yaradıcılıq metodu və bədii priyomlarını araşdırmaqdır. Bu məqsədə nail olmaq üçün aşağıda qeyd edilən vəzifələri yerinə yetirməyə çalışmışıq:

- 60-cı illər ədəbiyyatının əvvəlki dövrlərdən fərqlənən mərhələ özgürlüyünün müəyyənləşdirilməsi;
- Bu çağın nəsrinin mühüm elmi-nəzəri və tarixi-tipoloji səciyyəsinin verilməsi;
- Anarın şəxsində "yeni Azərbaycan nəsri"nin özəlliyinin tarixi-konseptual baxımdan açıqlanması;
- Anarın nəsr qəhrəmanlarının xarakterlərinin tale və zaman kontekstində təhlil edilməsi;
- Anar nəsrində zaman axarında dəyişən və dəyişməyən insanın tale yoluna aydınlıq gətirmək;
- Anarın qəhrəmanlarının xarakterlərinin, həyata baxışlarının hər hansı bir əsərin ümumi mövzusuyla, qoyulan problemlərlə nə dərəcədə bağlı olmasının müəyyənləşdirilməsi;
- İctimai-siyasi və milli konseptlərin dəyişməsinin Anar nəsrinə, onun obrazlar sisteminə təsirinin öyrənilməsi;
- Anarın xarakter ustalığını, qəhrəmanın gizli dünyasını daxili monoloqlar və qısa dialoqlarla açmaq kimi sənətkarlıq xüsusiyyətlərinin şərh edilməsi;
- Anar nəsrindəki obrazların fərdi və özünütəhlil xüsusiyyətlərinin üzə çıxarılması;
- Azərbaycanın müstəqillik əldə etməsilə Anar yaradıcılığında yer alan yeni mövzuların şərhi;
- Qarabağ hadisələrinin, müharibənin, itkilərin yazıçının qəhrəmanlarına, onların psixoloji durumuna təsir özünəməxsusluğunun aydınlaşdırılması;
- Anarın insan konseptində, xarakter konsepsiyasında tarixi həqiqətlərin, mühitin, zamanın rolunun müəyyənləşdirilməsi.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqat işinin əsas obyektini Anarın müxtəlif illərdə qələmə aldığı əsərlər, predmetini isə onun nəsr əsərlərinin qarşıya qoyulmuş məqsəd və vəzifələr kontekstində araşdırılması təşkil edir. Bununla bağlı Anar yaradıcılığı haqqında Azərbaycanda, Rusiya və Türkiyədə nəşr olunmuş monoqrafiyalar və ədəbi-tənqidi məqalələr tədqiqata cəlb edilmişdir. Anarın bədii irsi haqqında internet saytlarında yerləşdirilmiş mövzu ilə ilgili materiallar da,imkan daxilində araşdırılmışdır.

**Mövzunun araşdırılma vəziyyəti.** Anar ilk hekayələrini çap etdirdiyi vaxtlardan tənqid və ədəbiyyatşünaslığın diqqətini çəkmişdir. Onun yaradıcılığı, o sıradan da nəsr əsərləri daim görkəmli ədəbiyyatşünaslar, tənqidçi-alimlər tərəfindən araşdırılmışdır. Sovet dövründə yazdığı bəzi əsərləri mövcud siyasi rejimin tələblərinə cavab vermədiyindən ara-sıra tənqidlərə məruz qalmış, senzura qadağaları ilə üzləşmişdir. Bununla yanaşı, yazıçının əsərlərini obyektiv dəyərləndirən müəlliflər də az olmamışdır. Hələ 1971-ci ildə Məmməd Arif[1] özünün "Ağ limanlar və qırmızı gəmilər" məqaləsində gənc müəllifin əsərini siyasi-ideoloji müstəvidə deyil, sənətkarlıq xüsusiyyətləri baxımından təhlil etmişdi. Zaman keçdikcə, Anar yazıçı kimi tanınıb sevildikcə, məşhurlaşdıqca tənqidçiləri, araşdırmaçıları da onunla paralel addımlamış, ərsəyə gətirdiyi hər bir yeni əsər çox keçmədən mühitin müzakirə, tənqidçilərin təhlil obyektinə çevrilmişdir. A.Hüseynov[2], Y.Qarayev[3] və b. görkəmli ədəbiyyatşünasların araşdırmaları sovet dönəminə təsadüf edirdi. Artıq bu zamandan, yəni altmışıncı illərdən ədəbi-tənqiddə də yenilənmə, bədii əsərlərin fərqli meyarlarla təhlili formalaşır. Bu gün artıq milli ədəbiyyatşünaslığımızda anarşünaslıq adlandıra biləcəyimiz ayrıca bir istiqamətin əsasını da, məhz adlarını və əsərlərini sadaladığımız müəlliflər, alimlər qoymuşlar.

Bununla yanaşı, sovet tənqidinin dövrün siyasi-ideoloji yasaqları, təpkiləri səbəbindən deyə bilmədiyi bir sıra məqamlar müstəqillik illərindən sonra açıqlandı. Yəni, Anar nəsrində yer alan Azərbaycançılıq ideyaları, milli-mənəvi dəyərlərin təqdimi, türkçülük məfkurəsi haqda, məlum səbəbdən sovet tənqidində söz açılmırdısa, bunların üzərindən sükutla keçilirdisə, artıq müstəqillik qazanıldıqdan sonra mütəxəssislər yazıçının

---

[1] Dadaşzadə Məmməd Arif. Ağ limanlar və qırmızı gəmilər. "Ədəbiyyat və incəsənət" qəzeti, Bakı, 1971, 17 aprel

[2] Hüseynov Akif. Müasirlik problemi və nəsrin axtarışları // "Azərbaycan" jurnalı. 1977, №6, s.25-40

[3] Qarayev Yaşar. Ağ limandan başlanan yol // Anar. Seçilmiş əsərləri: 5 cilddə, III c., Bakı: Elm, 2015, s.540-551

yaradıcılığına, yeni meyarlarla yanaşmağa başladılar. Müəllifin əsərlərindəki sadaladığımız keyfiyyətləri çəkinmədən elmi dövriyyəyə gətirdilər. Belə demək olarsa, anarşünaslıq yeni bir mərhələyə qədəm qoydu. Eyni zamanda yazıçı barədə yeni sanballı araşdırmalar aparıldı, məqalələr, monoqrafiyalar dərc olundu, dissertasiyalar yazıldı. Bu sırada İsa Həbibbəylinin[1] "Ədəbiyyatımızda Anar zirvəsi" adlı geniş araşdırmasını, Nizami Cəfərovun[2] "Azərbaycan ədəbiyyatının komandanı (Anar – 70)" adlı yubiley məqaləsini, Himalay Qasımovun[3] "Azərbaycan romanının inkişaf problemləri" monoqrafiyasında ayrıca yer almış"Anarın bədii nəsrinin özəllikləri."Ağ liman"dan "Beşmərtəbəli evin altıncı mərtəbəsi"nə" fəslini nümunə göstərmək olar. Sadalananlardan əlavə Anarın şəxsiyyətini, sənətini, xüsusən də nəsrini geniş tədqiqat obyektinə çevirən S.Bəşirovun "Anar" (1994), N.Əliyevanın "Anar – şəxsiyyət və sənətkar" (1999), S.Xəyalın "Anlanılmamaq dərdi (Anarın yaradıcılığı əsasında)" (2003), F.Musayevanın "Anarın bədii nəsrində xarakter problemi" (2003), N.Cəfərovun "Anar (yazıçı, mütəfəkkir – alim, ictimai xadim)" (2004), R.Uluselin "Qlobal düşüncə məkanında Azərbaycan ədəbiyyatı və Anar yaradıcılığı" (2005), Ə.Cahangirin "Ağ saç, qara saç" (2006), P.Gülxaninin "Anar və folklor" (2007), B.Əlibəylinin "Onuncu portret" (2008) və başqa tədqiqatçıların əsərlərini göstərmək olar.

Dünyanın müxtəlif dillərində əsərlərinin çap edilməsi Anarın ölkə hüdudlarından kənarda tanınması, xarici tənqidçilərin, xüsusən də rus və türk ədəbiyyatşünaslarının diqqətini çəkməsi, yaradıcılığı haqda məqalələrin, kitabların yazılması ilə nəticələnmişdir. Məşhur rus tənqidçiləri Lev Anninskinin "Dairənin qapanması" (1984), "Otel otağı" haqda şərhlər" (1996) məqalələrini, Lyudmila Lavrovanın "Tanımadığım tanış" (2008) kitabını, türk tənqidçisi Ayşə Atayın "Beş qatlı evin altıncı qatındakı adam: Anar. Həyatı, sənəti və hekayələri" (2008) kitabını xüsusi vurğulamaq olar.

Anarın istər nəsri, istərsə də dramaturgiyası haqda sanballı dissertasiyalar yazılıb, müəlliflər elmi dərəcələrə layiq görülüblər. Nurlana Əliyeva, Zakirə Əliyeva, Fidanə Musayeva, Təranə Əzimli, Xanımana Manaflı, Səadət İldırımzadə kimi alimlər ədəbiyyatşünaslığımızda imzası kifayət

---

[1] Həbibbəyli İsa. Ədəbiyyatımızda Anar zirvəsi. "Yeni Azərbaycan" qəzeti, Bakı, 2004, 27 aprel, s.11-12; Həbibbəyli İsa. Xalq yazıçısı Anar (portret oçerk). Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. Bakı: Elm və təhsil, 2016, s.327-353

[2] Cəfərov Nizami. Azərbaycan ədəbiyyatının komandanı// "Azərbaycan" jurnajı, 2008, № 3, s. 6-21

[3] Qasımov Himalay. Azərbaycan romanının inkişaf problemləri. Bakı: Nurlan,2008, 336 s.

qədər tanınan alimlərdir.

**Tədqiqatın metodologiyası**. Tədqiqat, əsasən, tarixi-müqayisəli və tarixi-tipoloji təhlil metodları əsasında aparılmış, çağdaş ədəbiyyatşünaslığın nəzəri təcrübə və qənaətlərindən istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyini şərtləndirən başlıca amil mövzunun ilk dəfə sistemli şəkildə müasir elmi-nəzəri prinsip və konsepsiyalar əsasında işlənməsidir.

Anarın nəsr yaradıcılığı ədəbiyyatşünaslığın və ədəbi tənqidin daim diqqət mərkəzində olsa, yazıçının obrazlar sistemi kifayət qədər tədqiq edilsə də, əksər qəhrəmanların sözü gedən mövzu kontekstində öyrənilməsinə ya rast gəlinmir, ya da problemə başqa mövzularda aparılan irihəcmli araşdırmaların içərisində kiçik fraqmentlər şəklində təsadüf edilir.

Anar nəsrində insan xarakterinə kataklizmlərinin təsiri (müsbət, yaxud mənfi) zaman və mühit kontekstində ayrıca problem kimi ilk dəfə bu dissertasiyada araşdırılmışdır. Tale və zaman müstəvisində izlənilən dəyişən və dəyişməyən obrazlar qalereyası səbəb və nəticə əlaqələri fonunda şərh edilmiş, irəli sürülən mülahizə və qənaətlər ədəbi materialların köməkliyi ilə əsaslandırılmışdır.

Tədqiqatın elmi yeniliklərindən biri də oxşar həyatları, hissləri yaşayan, bənzər talelərə malik Anar qəhrəmanlarının daxilindəki mənəvi-psixoloji fərqlərin üzə çıxarılması və elmi izahının verilməsidir.

60-cı illər ədəbiyyatının əvvəlki dövrlərdən fərqi, Anar nəsrinin özünəməxsusluğu, müəllifin yeni insan konsepsiyası, tənhalıq fəlsəfəsi haqqında söylənən orijinal fikirlər də dissertasiyanın elmi yenilikləri sırasındadır.

Müstəqilliyin qazanılmasından sonra Anar yaradıcılığında yer alan yeni mövzuların, ictimai-siyasi və milli konseptlərin dəyişməsinin yazıçının nəsrinə, onun obrazlar sisteminə təsirinin şərhini də dissertasiyanın yeniliklərinə aid etmək olar.

Anarın yaradıcılığına həsr olunmuş mövzu ilə bağlı bəzi elmi məqalə və monoqrafiyalardan, eləcə də internet saytlarına yerləşdirilmiş materiallardan geniş şəkildə ilk dəfə bu dissertasiyada istifadə edilmiş və indiyədək toxunulmamış məqamlar üzə çıxarılmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.**Tədqiqat işi Anar yaradıcılığına və ümumiyyətlə altmışıncılar ədəbi nəslinin yaratdığı ədəbiyyata yenidən nəzər salmağın zəruriliyini, bu dövr ədəbiyyatının yeni yanaşmalarla dəyərləndirilməsini aktuallaşdıra bilər.

Tədqiqat işində əldə edilən elmi qənaət və nəticələr Anar yaradıcılığı ilə məşğul olan tədqiqatçılar, onun nəsrindəki insan konsepsiyasını araşdıran mütəxəssislər üçün də faydalı ola bilər.

Eyni zamanda dissertasiyadan, Anarın yaradıcılığının, eləcə də altmışıncılar ədəbiyyatının ali və orta məktəblə tədrisində, milli-mənəvi dəyərlərin gənc nəslə çatdırılmasında istifadə etmək mümkündür.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan və dünya ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir. Tədqiqat işinin əsas müddəaları müəllifin "Anar dünyası" adlı esselər kitabında, yazıçının bir neçə əsərinə yazılmış ön sözlərdə, nüfuzlu elmi jurnallarda(o cümlədən xarici nəşrlərdə) dərc olunmuş məqalələrində, həmçinin beynəlxalq və respublika miqyaslı elmi konfranslarda etdiyi məruzələrdə öz əksini tapmışdır.

**Tədqiqat işinin strukturu**. Dissertasiya giriş, 2 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın I fəsli **"Anar nəsri XX və XXI əsr Azərbaycan ədəbiyyatı kontekstində"** adlanır. Bu fəslin **"Anar nəsrinin özünəməxsusluğu"** adlı I yarımfəslində Anarın da aid olduğu altmışıncılar ədəbi nəslinə gətirən yolu, ənənələri müəyyənləşdirmək üçün Azərbaycanda XIX əsrin II yarısı və XX əsrin əvvəllərində elm, sənət, ədəbiyyat sahəsində canlanma və milliləşmə prosesinin tarixinə nəzər salınır, dövrün ədəbi panoramı verilir: Şərqin ilk dünyəvi dövləti–Azərbaycan Xalq Cümhuriyyəti dövrü ədəbiyyatına xüsusi diqqət yetirilir. Bu dövrdə yaranan ədəbiyyatın xarakteristikası verilir. Xüsusi fəallığı ilə seçilən Əhməd Cavad, Üzeyir bəy Hacıbəyli və b. sənətkarların milli ideyaların təbliği və tərənnümü ilə bağlı fəaliyyəti xatırlanır. Sovet hökümətinin qurulması ilə milli ideyaların–türkçülüyün, Azərbaycançılığın yasaq olunduğu və istər ölkəmizin, istərsə də ədəbiyyatımızın tarixində yeni səhifə açıldığı diqqətə çatdırılır.

Mövzunun davamı olaraq 60-cı illər ədəbiyyatının tarixçəsinə daha əhatəli toxunulur. Bu dövr ədəbiyyatının yaranma səbəbləri əvvəlki ədəbi ənənələr və sənətkarların yaradıcılıq amalı ilə yanaşı, ölkədə gedən ictimai-siyasi proseslərlə – mühitlə əlaqələndirilir.

Azərbaycanda yeni ədəbiyyatın formalaşmasında altmışıncı illər rus ədəbiyyatının, kinosunun, ümumiyyətlə incəsənətinin böyük təsiri olduğu vurğulanır və dəyişikliklərin, məhz mərkəzdən, yəni Rusiyanın özündən–onun paytaxtı Moskvadan başlandığı, daha sonra başqa respublikalara ötürüldüyü diqqətə çatdırılır. Belə ki, altmışıncı illər rus ədəbiyyatının, kinosunun, ümumiyyətlə incəsənətinin yeni dövrü sayılır.

Bu dövr Azərbaycan ədəbiyyatının da qızıl dövrü hesab oluna bilər. Bu illərdə ədəbiyyata yeni bir gənclik, yeni bir qüvvə gəldi. Nəsrdə Yusif

Səmədoğlu, Anar, Elçin, İsi Məlikzadə, Maqsud İbrahimbəyov, Mövlud Süleymanlı, poeziyada Vaqif Səmədoğlu, Fikrət Qoca, Ələkbər Salahzadə, İsa İsmayılzadə, bir az sonralar Ramiz Rövşən və digərləri bu yeni ədəbi gəncliyin ən istedadlı nümayəndələri oldular. Xatırladaq ki, ədəbiyyata daha əvvəl gələn yazıçıların(İsmayıl Şıxlının, İsa Hüseynovun, İlyas Əfəndiyevin və b.) da yaradıcılığında, məhz, altmışıncı illərdən sonra ciddi dəyişikliklər yarandı: onların da üslub xüsusiyyətləri, mövzu rəngarəngliyi, həyata, hadisələrə yanaşma tərzi, sənətkar kredosu yeniləndi.

Bu yarımfəsildə daha sonra 60-cı illər ədəbiyyatının spesifikliyinə aydınlıq gətirilir. Bu ədəbiyyatın özünəməxsusluğu sırasında sadə insanın ədəbiyyata gətirilməsi, yazıçı-oxucu münasibətinin intensivliyi, real insan-bədii qəhrəman yaxınlaşması xüsusi vurğulanır.

Daha sonra bu dövrün ədəbiyyatında sənədli əsərlərin yazılmasının səbəbləri də şərh edilir və səbəb ədəbiyyatda gerçəkliyi, "həyatiliyi" artırmaqda görülür. Mülahizə Anarın "Roman və zaman" məqaləsində irəli sürdüyü fikirlərlə təsdiqlənir: "...müasir ədəbiyyatın digər nümunələrində olan sənədlilik əlamətləri heç də dəb xətrinə, yaxud müəllifin üslub yaratmaq həvəsiylə bağlı deyil. Bu, dövrün havasıyla bağlı məqamdı, həqiqəti canlı, konkret, təhrifsiz izah etmək, həqiqəti ümumi deyil, birbaşa, ilkin qiyafəsində demək, yaxın keçmişin "həyat bir şey, ədəbiyyat başqa şeydi" təlqiniylə itmiş, haçalanmış, qeyb olmuş oxucu inamını qaytarmaq cəhdidi"[1]. Yazıçının konkret olaraq romanlarda sənədliliklə bağlı irəli sürdüyü fikirləri gənclik illərində yazdığı gərgin, dedektiv süjeti ilə diqqət çəkən "Gecə yarısında hadisə" adlı məhkəmə oçerkinə də (onu sənədli povest də adlandırmaq olar) aid etmək olar.

Bu yarımfəsildə 60-cılar nəslinin fərqli yaradıcılıq aspektlərinə də toxunulur və bu qənaətə gəlinir ki, onların əsas fərqlilikləri milli-mənəvi dəyərlərin təsvir və tərənnümünə sadiq qalmaları, eləcə də bunları modern şəkildə, yeni formada, janrda təqdim etmələri, yəni məqsədlərinin köhnəni məhv etmək deyil, yenini möhkəm ənənəvi təməllər üzərində qurmaları və yaşatmaları idi.

Burada Anarı öz nəsildaşlarından fərqləndirən yaradıcılıq özəlliklərinə də kifayət qədər diqqət yetirilir. Bu fərqlər hələ erkən yaşlarından yazmış olduğu ilk hekayələrindən bu yana son illərdə qələmə aldığı povestlərində, romanlarında da müşahidə edilir.

"Həyatın mənası nədədir? – sualına Anarın əsərləri və qəhrəmanları,

[1]Анар. Барометр времени: Судьбы романа–судьбы реализма. "Литературная газета", Москва, 1987, 7 января, с.7

adətən bir cür cavab verirlər: mənəvi ünsiyyətdə! Sadəcə "ünsiyyət" deyil, mənəvi ünsiyyət! Fikrimizcə, yazıçının məhz bu problemləri qoyması, "həyatın mənasını mənəvi ünsiyyətdə" görməsi və qəhrəmanlarının bunun qıtlığından əzab çəkməsi onun özünün mühitilə, uşaqlıq, yeniyetməlik illərinin ab-havasıyla bağlı idi.

Anar yaradıcılığının və yazıçının özünün fərqliliklərindən biri də günün nəbzini tutmasıdır. Yəni, əgər bu söz, bu fikir indi, bu gün deyilməli, bu ideya oxucuya yubanmadan çatdırılmalıdırsa, Anar onu sabaha qoymur. Amma ən qəribəsi də odur ki, bu günün dərdlərindən yazsa da, əslində mahiyyət etibarı ilə bütün zamanlar, bütün "gələcəklər" üçün yazır.

Anarın nəsildaşlarından fərqli və onlarla oxşar cəhətləri haqda müxtəlif mülahizələr var. Bu fikirlərdə Anarın ədəbiyyata "tamam yeni nəfəslə və yetkin bir yazıçı kimi gəlməsi", "bizim müasir ədəbiyyatımızdakı ən parlaq debütantlardan biri olması" xüsusi vurğulanır. 19-20 yaşlı gənc Anarın ilk hekayələri "Bayram həsrətində", "Keçən ilin son gecəsi" əsərləri deyilənləri təsdiq edir. Adını çəkdiyimiz birinci hekayədə balaca Gülarənin, eləcə də "Keçən ilin son gecəsi"ni tək-tənha yola salan, yaşının ahıl çağına qədəm qoymuş Həmidə xalanın duyğularını gənc "debütant" yüksək peşəkarlıqla qələmə alıb.

Mütəxəssislər Anarın dünyaya, sanki "böyük bir misssiya" üçün gəldiyini vurğulayırlar. Məhz o böyük missiya Yaşar Qarayevin təbirincə söyləsək, "xırda" qəhrəmanlar vasitəsilə "monumental"ı yaratmağa sövq edirdi. Fikrimizcə, "monumental" sözünün altında bir çox mətləblər gizlənir. Bu missiya ilk növbədə kiçik qəhrəmanların timsalında bir milləti, bir xalqı, yaxud bütöv bir dünyanı ifadə etmək missiyasıdır.

Milli təəssübkeşliyi, haqqında söz açdığımız nəsli birləşdirməsi və bu ideyaların onların əsərlərinə də sirayət etməsi haqda bir çox tədqiqatçı-alimlər, sənətkarlar yazmışlar. Əsərlərindən qırmızı xəttlə keçən tənhalıq mövzusu, "ünsiyyətsizlik" problemi də Anar yaradıcılığının özəl keyfiyyətləri sırasına daxil edilir. "Mən, Sən, O və telefon" hekayəsinin qəhrəmanı Mədinə də tənha idi və Nerinqa radiosunu özünə "həmdəm" seçmişdi. Yaxud, "Ağ liman"da mühasib Səftər dayının hayanı heç vaxt zəngi eşidilməyən, zəng gəlməyən telefon idi. "Macal"da Fuadın atası Qurban da tənhalığını lal-dinməz balıqlarla ovudurdu. Anar nəsrindən bu cür qəhrəmanları yenə də sadalamaq olar.

Anar yaradıcılığının özəlliklərindən danışarkən yazıçının mövzu və üslub axtarışları, əsərlərində məzmun və forma vəhdəti, yeni-yeni janrlarla bağlı eksperimentləri, fərqli ədəbi cərəyanlara müraciətləri də unudulmamalıdır. Hələ 80-ci illərin sonunda "mənim bütün yazılarım eksperimentdir. O cəhətdən eksperimentdir ki, mən ədəbiyyatın müxtəlif formalarında və

janrlarında yazaraq müxtəlif formalarını və janrlarını mənimsəmək istəmişəm”[1] – deyən yazıçı sonrakı illərdə də yaradıcılıq axtarışlarını, eksperimentlərini fasiləsiz olaraq davam etdirib. Anar musiqi, rəssamlıq, teatr, kino və b. sahələrdə də öz izini qoymuşdur. Bu eksperimentləri və sınaqları onun nəsrində də müşahidə etmək olar. İlk hekayələri olan “Bayram həsrətində”, “Keçən ilin son gecəsi”, “Taksi və vaxt” lirik-psixoloji novellalar hesab oluna bilər. “Molla Nəsrəddin-66”, “Molla Nəsrəddin -86” “Yaxşı padşahın nağılı” satirik pamflet, “Gecə yarısında hadisə ” – yarıdetektiv məhkəmə oçerki, “Əlaqə” – fantastik povest, “Ağ liman”, “Beşmərtəbəli evin altıncı mərtəbəsi” – lirik-psixoloji, sosial dilogiya, “Sizsiz”, “Həyatım ağrıyır” – xatirə-romandır.

Yuxarıda sadaladığımız əsərlər yazıçının yaradıcılığının, belə demək olarsa, birinci dövründə, yəni sovetlər zamanında yazdıqlarıdır. Lakin 90-cı illərdən sonra da bu silsilə davam etdirildi. Fantastik janrda əsərlərin davamı kimi “Vahimə”, “Qırmızı limuzin”, psixoloji, sosial, sürrealist elementləri özündə birləşdirən “Otel otağı” povesti, “Ağ qoç, qara qoç” utopik-antiutopik romanı, satirik silsilənin ardı olaraq “Yay gecəsinin röyası”, “Kim Dali – yaxud yaşasın söz azadlığı”, “Bir gül ilə bahar olmaz”, “Ağlım başıma gəldi”, “Futbol reportajı” hekayələri yazıldı. Yazıçının, son vaxtlar qələmə aldığı “Göz muncuğu” romanı isə çağdaş zamanın nəsr tələblərinə cavab verən yarı-fantastik, yarısürreal, bir qədər də postmodern üslubda yazılıb.

Anar nəsrini həm sovet dövr prozası kontekstində, həm də ayrıca təhlil etdikdə yazıçının yaradıcılığında zamanla, dövrlə səsləşən və səsləşməyən müxtəlif məqamlar nəzərə çarpır. Bir qayda olaraq yazıçı bütün eksperimentləri, dövrə, zamana uyğun olaraq etdiyi yenilikləri ilə bərabər həm də özünə, tutduğu yaradıcılıq yoluna, ideyalarına sadiqdir. O, nə Sovet dönəmində, nə də müstəqillik illərində dövrün, zamanın yazılmamış qanunlarına tabe olub. Əlbəttə, tarixi hadisələr onun yaradıcılığına yeni mövzular, yeni rənglər gətirib. Məsələn, ölkənin müstəqil olması, Türkiyə ilə sərhədlərin açılması, Qarabağ olayları “Muhakkak görüşürüz”, “Otel otağı”, “Vahimə”, “Ağ qoç, qara qoç” kimi əsərlərə mövzu verib. Lakin Anar heç vəchlə XXI əsrin “əndrəbadi” cərəyan axınlarına qoşulmayıb. Qloballaşma və Avropalaşma “yarışları”na da qoşulmayan yazıçı öz maarifçi ruhunu, milli köklərə bağlılığını, türkçülük, Azərbaycançılıq məfkurəsini qoruyub saxlayıb. Lakin eksperimentlər, yeni janrlara, yeni ifadə vasitələrinə müraciət onun yaradıcılığında həmişə öndə olan, diqqət çəkən məqamdır. Bu baxımdan yazıçının müstəqillik dövrü yaradıcılığının manti-

[1] Anar. Əsərləri: 10 cilddə, VI c., Bakı: Nurlan, 2006, s.400

qi davamı olan “Göz muncuğu” romanını xüsusi qeyd edə bilərik. Belə ki, müxtəlif tənqidçilərin təhlillərində əsərdə postmodernist elementlərin çoxluğu, süjetin məhz bu üslubda cərəyan etməsi göstərilir. Əlbəttə, XXI əsrdə bədii ədəbiyyat qarşısında qoyulan tələblərdən biri də dinamika, sürətlilikdirsə, yazıçı bu əsərində həmin tələbləri nəzərə almamış deyildir. Həm də yeni postmodernizm elementlərinin əsərdə bu və ya digər şəkildə sezilməsi təbiidir. Lakin yazıçının bütün eksperiment və yeniliklərdə gözlədiyi ölçü hissi bu məqamda da xüsusi vurğulanmalıdır. “Göz muncuğu” romanının “Azərbaycan” jurnalın müzakirəsi zamanı akademik İsa Həbibbəyli yazıçının postmodernizmə müraciət həddinin nümunəvi olduğunu söyləyib: “Anarın bu povestdəki postmodernizmi müasir postmodern yazarlara bir nümunə ola bilər. O, öz qəhrəmanlarını alçaltmadan, reallığın ən adi formalarında göstərərək postmodern şəkildə təqdim eləyə bilib. Məncə, postmodernizmin enib gələcəyi məqam bura qədər olmalıdır”[1].

Hörmətli akademik İsa Həbibbəylinin də əsərin müzakirəsində vurğuladığı kimi burada müəyyən postmodern elementlər olmamış deyildir. Yəni süjetin fraqmentar olmasını, kollaj effektlərini, çağdaş dedektiv mövzusunu, mifik qəhrəmanlara və klassik ədəbiyyatdan gələn obrazlara (Mifik qəhrəmanlar olan Diri Babaya, Təpəgözə, yaxud Mirzə Cəlilin İskəndərinə, Şeyx Nəsrullasına) yeni yanaşmanı postmodern estetikaya aid etmək olar. Lakin bununla belə yazıçının realist, tənqidi-realist ideyalarına sadiq qalması da nəzərə çarpır. Bir qayda olaraq bu fikri Anarın XXI əsrdə yazdığı “Ağ qoç, qara qoç” romanına, “Bir sən, bir mən, bir ölüm”, “Ağlım başıma gəldi” hekayələrinə, “Yay gecəsinin röyası”, “Bir gül ilə bahar olmaz”, “Futbol reportajı” satirik əsərlərinə də aid etmək mümkündür.

XXI əsr və onun ab-havası Anarın əsərlərində həm ədəbi kriterilər baxımından, həm də yeni mövzuların onun nəsrinə gəlməsilə duyulur. Bu mənada yazıçının “Ağ qoç, qara qoç” əsəri xarakterik hesab oluna bilər. XXI əsrin əvvəllərində dünyada gedən siyasi çaxnaşmalar, böyük güclərin, hegemon dövlətlərin kiçik ölkələrə münasibəti, vətənimizin üzləşə biləcəyi bəlalar, bütün bunları müəllif yazıçı fəhmi ilə duyub, ziyalı kimi narahatlığını ifadə edib. Lakin eyni zamanda yeni dövrün, yeni əsrin insanının mənəvi aşınmasını, dəyərlərin itirilmək təhlükəsiylə üz-üzə durmasını əsərin ikinci – antiutopiya hissəsində göstərib. Fikrimizcə burda ifadə olunanlar, təkcə Azərbaycan insanının deyil, ümumiyyətlə bəşərin dərdidir.

Yaradıcılığa başladığı ilk vaxtlardan çağımıza qədər davam edən axtarışların nəticəsi olaraq meydana çıxan bu əsərlər Anar nəsrinin polifonik,

[1] http:// kulis.az/news/13962

çoxrəngli və çoxqatlı olmasından xəbər verir. Bu da zənnimizcə yazıçının özünəməxsusluğunu, yaradıcılığının başlıca özəlliklərini göstərən məqamdır.

I fəslin "**Anar nəsrində "yeni insan" konsepsiyası. Tənhalıq fəlsəfəsi"** adlı II yarımfəslində qeyd edilir ki, 60-cı illərdə ədəbiyyatın yeniləşməsi, "yeni nəsr"in meydana gəlməsi ilə bədii fikir tariximizdə yeni bir mərhələnin əsası qoyuldu. Bütün üslub və forma yenilikləri, mövzu və ifadə vasitələrinin təzələnməsi ilə bərabər bu dövr nəsrində əsas yenilik insan idi. Yəni, belə demək mümkünsə, bu nəsrin yeni hesab olunmasının səbəbkarı yeni qəhrəman idi. Ş.Salmanov yazır: "Elə yazıçılar da olur ki, onların ədəbiyyata, sənətə gəlişi ilə ədəbiyyatda, sənətdə bütöv bir mərhələ başlanır, yeni cərəyan, fikir, düşüncə məktəbi formalaşır və özünü təsdiq edir. Ədəbiyyatda, bədii fikirdə yeni dəyərlər, prinsiplər, zövqlər, görüşlər doğulur. Çağdaş Azərbaycan ədəbiyyatında bu cür yazıçılardan biri Anardır"[1]. Yəni, Anarın ədəbiyyata gəlişi bir növ dövrün "tələbi" idisə , yaxud, məhz o zamanki mühitin təsiriylə yazıçı əsərlərnin üslubunu, dilini, mövzularını, qəhrəmanlarının xarakterini müəyyənləşdirirdisə, təbii şəkildə "yeni nəsr"in parametrlərinə, formalarına uyğun yazırdısa da, bütün bunlar qarşılıqlı idi–deyə bilərik. Başqa sözlə, təkcə dövr, zaman, mühit, yeni qaydalar Anara, onun yaradıcılığına təsir etməyib, Anar da mühitin, yeni ədəbiyyatın, qəhrəmanların, üslub və forma yeniliklərinin yaranmasında iştirak edib, öz yeniliklərini ədəbiyyatımıza gətirib və ondan sonrakı nəsillərə aid neçə-neçə gənc yazıçı onu özünün ustadı sayıb, onun açdığı cığırlarla, qoyduğu yollarla gedib. Yaradıcılığındakı həyatilik, canlılıq ilk gündən ədəbi tənqidin də, sadə oxucuların da marağına səbəb olub.

Anarın qəhrəmanları bizlərdən biri olmaları ilə, bizə, yəni oxucuya bənzəmələrilə, yaxınlıqları ilə doğmadırlar. Tədqiq olunan dövr ədəbiyyatının, həmçinin də Anar yaradıcılığının əsas məziyyəti də budur.

Daha sonra "yeni insan" konsepsiyası əvvəlki dövrlər ədəbiyyatının qəhrəmanları ilə müqayisə edilir və üstünlük 60-cı illər ədəbiyyatının qəhrəmanlarına verilir. Vurğulanır ki, "60-cılar" əslində XX əsrin əvvəllərindən başlayıb, təxminən, 30-cu illərin sonlarına qədər davam edən ədəbi prosesin yetirməsidir. Mirzə Cəlil nəsliylə "60-cılar" nəsli arasına sosialist realizmi: yəni birbaşa həyata deyil, ideologiyaya əsaslanan bir dövr düşmüşdü ki, bu da sonucda "altmışıncılar"ın yazdıqları ilə sənətə özəl bir ovqat aşıladı.

---

[1] Salmanov Şamil. Kamillik: Anarın 60 yaşı // "Azərbaycan" jurnalı. 1998, №3-4, s.160

Təsadüfi deyil ki, Ümummilli lider Heydər Əliyev Xalq yazıçısı Anarın 60 illik yubileyi ilə bağlı təbrik məktubunda bu məqamı xüsusi qeyd edirdi: "Molla Nəsrəddin" ənənələrinə, müdrik Mirzə Cəlilin millət dərslərinə bizim səhnədə və jurnalistikada yenidən həyat vermiş fəaliyyətiniz də diqqətə layiqdir... təşəbbüsünüzlə yaranan "Qobustan" toplusu azərbaycançılıq ideyalarının carçısına çevrilərək bütöv bir nəslin milli, mənəvi-əxlaqi qayə və duyğularının formalaşmasında böyük rol oynamışdır"[1]. Ulu öndərin təbrik məktubunda vurğuladığı məqam Anarın istər yazıçı, istərsə də ictimai-xadim kimi gördüyü işlərin əsas özəyini, məziyyətini təşkil edir. Artıq söylədiyimiz kimi, Anar və onun nəsildaşlarının əsərləri, qəhrəmanları XX əsrin əvvəllərindən başlanğıc götürmüş "Molla Nəsrəddin" ənənələrinin, Mirzə Cəlil məktəbinin davamçıları idi. Bu mənada əslində elə Anar nəsrindəki "yeni insan" Mirzə Cəlilin, onun qələmdaşlarının qəhrəmanlarının mənəvi varisi, davamçısı sayıla bilər. Anarın müəllifi olduğu ""Molla Nəsrəddin - 66" klassik satira ənənəsi ilə çağdaş realist ədəbiyyatın vəhdətindən yoğrulmuş yeni tipli satiradır, ədəbiyyat nəzəriyyəsi dili ilə desək, sarkazm, yaxud qroteskdir. Bu, böyük demokrat Cəlil Məmmədquluzadənin sənət ənənələrinin, yaxud mollanəsrəddinçi hekayəçiliyin yenidən dirçəldilməsi və ya çoxillik fasilədən sonra bərpa edilərək və müasirləşdirilərək yaşadılması, yaradıcı şəkildə davam etdilirməsi demək idi"[2].

Yarımfəsildə daha sonra "Molla Nəsrəddin - 66", "Molla Nəsrəddin - 86", "Molla Nəsrəddin 110 il sonra" satirik silsiləsinin yaranma tarixçəsi diqqətə çatdırılır, amalı açıqlanır. Silsiləyə daxil olan əsərlərin dili, üslubu, eləcə də tematika və problematikası şərh edilir.

Əslində Anar "Molla Nəsrəddin - 66", "Molla Nəsərddin – 86", yeni yazmış olduğu silsilələri, son illərdə yazdığı satirik hekayələri ilə Mirzə Cəlil nəsrinin davamçısı sayılırsa, yaradıcısı olduğu və Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, "bütöv bir nəslin milli, mənəvi-əxlaqi qayə və duyğularının formalaşmasında böyük rol oynayan" "Qobustan" toplusu da Mirzə Cəlilin təsis etdiyi "Molla Nəsrəddin" dərgisinin varisi hesab olunmalıdır.

Tədqiqat işində "yeni insan" istilahının şərti olaraq qəbul edilməli olduğu diqqətə çatdırılır. 60-cılar nəsrində qəhrəmanların ənənəvi Sovet nəsrində olduğu kimi "müsbət", "mənfi" yanaşması ilə təsnifatlanması

[1] Əliyev Heydər. Xalq yazıçısı Anara // "Azərbaycan" qəzeti, Bakı, 1998, 14 mart
[2] Həbibbəyli İsa. Xalq yazıçısı Anar (portret oçerk) // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. Bakı: Elm və təhsil, 2016, s.331

yanlışdı. Bu insanların hər biri özünəməxsusdur, fərqlidir, mürəkkəb olduğu qədər sadədir, adi olduğu qədər də qeyri-adidir, əslində elə real həyatda olduğu kimi.

Anarın və onunla eyni vaxtda əsəbiyyata gələn nəslin yaradıcılığında bir əsas fərq də var: sosializm-realizmi cərəyanına aid əsərlərdə əsas "qəhrəman" mühit idi, ön planda hadisə, süjet idisə, burada iri planda insandır.

Zamanında gənc yazıçılar haqqında məqaləsində Anarın yaradıcılığından da söz açan yazıçı Mehdi Hüseyn məhz bu məqamı xüsusi vurğulayırdı: "Ən yeni ədəbi nəslimizin nümayəndəsi Anar öz hekayələrini sadə, ifadəli bir dildə, yığcam və mənalı yazmağa çalışır"[1]. Yazıçının bu sözlərini əsas götürüb söyləmək olar ki, "Çexovun "yığcamlıq istedadın bacısıdır" kəlamı hər hansı başqa nasirlərimizdən daha çox məhz Anara aiddir"[2]. Amma bu yığcamlıq, lakoniklik içərisindəki üfüq genişliyi, yazıçının hadisələrə, insana həm yaxından, həm də bir az kənardan, uzaqdan baxması, onu bütün rakurslardan göstərməsi əsas məqamlardan biridir.

Daha sonra VAXT Anarın "Taksi və vaxt" hekayəsinin qəhrəmanı kimi təhlil olunur. Bildirilir ki, "zaman obrazı, Anarın demək olar ki, bütün əsərlərində gizli, "mətnaltı", yaxud elə açıq qəhrəmandır. Ünvan, reys, telefon, sürət, təvəllüd, mövsüm tarixləri – bunlar hələ yalnız zahiri detallardır.

Bu əsərlərin ruhu, əsəbi, alt qatı, "vaxt fəlsəfəsi" ilə dərk olunur"[3].

Hələ 80-ci illərdə məşhur türk dilçi alimi, türkoloqu Əhməd Bican Ercilasun yazırdı: "Cəlbedici bir üsluba, dərin, qüvvətli anlatmaq qabiliyyətinə sahib olan Anar Rəsuloğlu əsərlərində milli fikri izləməkdə və bilxassə Stalin dövrünü acı bir dillə ifadə etməkdədir. Bu baxımdan "Ağ liman" da maraq doğura biləcək bir əsərdir. "O gecənin səhəri" hekayəsində də eyni ruhu və üslubu duyacaqsınız"[4]. Qeyd edək ki, görkəmli alimin vurğuladığı **"**dövrü ifadə etmək**"** xüsusiyyətini Anarın bütün əsərlərinə aid etmək olar. Əgər "Ağ liman", "O gecənin səhəri", yaxud "Yaxşı padşahın nağılı" hekayələri, "Molla Nəsrəddin - 66" silsiləsi dövrü, totalitar rejimin amansızlıqlarını "ezop dilində" də olsa, "birbaşa" göstərir, naqisliklərə diqqət çəkirdisə, digər əsərlərdə də zaman və zəmanə hansısa başqa vasitələr, üsullarla

---

[1] Hüseyn Mehdi. Yeni mərhələ, yeni vəzifələr // "Azərbaycan" jurnalı, 1962, №7, s.34

[2] Кафаров Владимир. Литература и наука его призвание. Газета "Бакинский рабочий", Баку, 1999, 4 ноября, с.2

[3] Qarayev Yaşar. "Ağ limandan başlanan yol" // Anar. Seçilmiş əsərləri: 2 cilddə, I c., Bakı: Azərnəşr, 1988, 400 s.

[4] Ercilasun Ahmet Bilge. Azerbaycandan güclü bir ses// "Türk edebiyyatı" dergisi. 1982, №108, s.15-16

ifadə olunur.

Bu yarımfəsildə "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanı da mühit-müəllif-mətn kontekstində ətraflı təhlil edilir. Əsər haqqında yazılan mütəxəssis rəylərinə münasibət bildirilir.

Ədəbiyyatşünas Cəlal Abdullayev yazır: "Anar bir nasir kimi, gündəlik, adi hadisələrin təsvir və təhkiyəsindən istifadə edərək, mənəvi aləmin mürəkkəb, qeyri-adi mahiyyətini təsvir edən xüsusiyyətlərini araşdırmağa müvəffəq olur"[1]. Bütün mürəkkəblik isə məhəbbətdə, Zaurun Təhminəyə, Təhminənin Zaura məhəbbətindədir. Bununla bərabər yazıçı bu mürəkkəbliyin və yeknəsək reallığın içərisində təkrarsız eşqi, səmavi məhəbbəti yarada bilib.

Əslində, romanı birmənalı şəkildə məhəbbət romanı adlandırmaq da doğru olmazdı. Lakin bununla belə əsərin məhəbbət xətti diqqət çəkir və bu süjetin müxtəlif formalarda, janrlarda – roman kimi, "Təhminə və Zaur" pyesi kimi, "Təhminə və Zaur" tamaşası kimi, "Təhminə" filmi kimi uğur qazanmağına, populyarlaşmasına səbəb olub. Doğrudan da "Anara qədər Azərbaycan nəsrində heç vaxt məhəbbət haqqında belə azad, belə sərbəst yazmayıblar"[2]. Əsəri çağdaş "Leyli və Məcnun" adlandıranlar da varmış.

Anarın əsərlərindən qırmızı xəttlə keçən tənhalıq mövzusu ən çox Təhminənin varlığında görünür. Bu mənada Təhminə bütün başqa qəhrəmanlarla müqayisədə "daha tənhadır". Beləliklə, tənhaqlıq mövzusunu bu aspektdə davam etdirib deyə bilərik ki, yazıçının qəhrəmanları həm də dövrün, zamanın, mühitin təklədiyi insanlardı. Artıq qeyd etdiyimiz kimi, çərçivələr içərisində, buxovlar arasında özünəqapanmış, təcrid olunmuş adamlardı.

**"Anar nəsrində insan xarakterləri tale və zaman müstəvisində"** adlanan II fəslin **"Dəyişən və dəyişməyən obrazlar aləmi" adlı** I yarımfəsli "Kataklizm"–sözünün mənasına aydınlıq gətirməklə başlayır. Müxtəlif lüğəvi mənalarda işlənən bu sözün məcazi mənası–bütün canlı orqanizmləri məhv edən "çevriliş" mənası əsas götürülür və bu HADİSƏnin Anarın nəsr əsərlərinin hər birində müşahidə edildiyi vurğulanır.

Anar nəsrində kataklizm anlayışı iki cəhətdən yozulur. Birincisi–Qarabağ olayları, 20 yanvar hadisəsi, Xocalı faciəsi kimi, ümumiyyətlə ölkənin, millətin həyatında baş verən kataklizmlər. İkincisi isə qəhrəmanların öz həyatları, kiçik dünyalarında olan tale kataklizmləri–"Gürcü famili-

---

[3] Abdullayev Cəlal. Azərbaycan sovet ədəbiyyatı. Bakı: Maarif, 1988, s.409

[2] Ахундова Эльмира. Местодержатель памяти. Газета "Бакинский рабочий", Баку, 2008, 15 марта, с.4

yası” hekayəsində Əsmərin sevmədiyi adamla ailə qurması kimi, “Macal” povestində Fuadın müəllimi Böyük Fuadın (Salahlı) ölümü kimi, “Dantenin yubileyi”ndə Feyzulla Kəbirlinskiyə verilən dəvətnamə kimi, “Əlaqə” əsərində Tələbənin qəribə, mistik bir evi kirayələməsi kimi, “Vahimə”də həkim Orucun bağının köhnə sahibi Balaminin gəlişi kimi, yaxud “Beşmərtəbəli evin altıncı mərtəbəsi” romanında Zaurun Təhminədən ayrılması və ya Təhminənin ölümü kimi kataklizmlər. Yəni, mahiyyət etibarilə burada əsas məsələ kataklizmin həcmində, “dağıdıcılıq” qabiliyyətinin dərəcəsində deyil, əsas məsələ insandır və onun bu cür tale oyunları, zamanın gözlənilməz sürprizləri ilə üzləşəndə özünü necə aparmasında, dəyişilib-dəyişilməməyindədir. Bu mənada “Anar həqiqətən də insanın bir hadisə, əksər qismi suyun altında qalan aysberqə bənzər olduğunu təsdiqləyir”[1].

Anar öz qəhrəmanlarına real yanaşır, onları canlı, diri insan kimi hiss edir. Onun adi adamların vasitəsilə qeyri-adi mətləbləri, dərin həyati məsələləri ifadə etməsini tədqiqatımızın öncəki səhifələrində vurğulamışıq. Əslində, Anar bu adidən-adi adamları nə üçün diqqət mərkəzinə çəkir? Ona görə ki, həyatın, dünyanın, tarixin özü də bu adamlardan asılıdır. Çünki bir qayda olaraq həyatın, zamanın əsas aparıcı qüvvəsi daha çox “yuxarıdakılar”, “müsbətlər” yox, “adilər” və “aşağıdakılar”dır. Bu cür insanlardan biri də “Dantenin yubileyi” hekayəsinin baş qəhrəmanı Feyzulla Kəbirlinskidir. Zahirən adi adam təsiri bağışlayan Feyzullanın isə daxili aləmini açmaq, göstərmək sadə deyil. O, qısaca desək, dürüst insandır. Əslində əsərdə hər kəs öz-özlüyündə haqlıdır. Feyzullanın gününü qara edib daha yaxşı yaşamaq istəyən xanımı Həcər də, atasının hər yerdə aşağılanmasına, ələ salınmasına görə üsyan edən Eldar da, cavan, tələbkar tənqidçi də, elə Kəbirlinskinin özü də öz aləmində haqlıdır. Bəlkə elə əsərin unikallığı da bundadır.

Anarın bir nasir kimi qeyri-adi cəhətlərindən biri də öz mövqeyini, münasibətini oxucuya göstərməməsidir. Yəni yazıçı birmənalı olaraq – bu, yaxşıdı, bu, pisdi – söyləmir. “Dantenin yubileyi”ndəki Feyzulla da eyni kriteriya ilə yaradılıb.

Kəbirlinski bütün naqis cəhətlərinə, zəifliyinə, bacarıqsızlığına baxmayaraq vicdanlı adamdı, öz içində belə, inamının əleyhinə gedə bilmir. Hətta, heç kəsin bundan xəbər tutmayacağına əmin olsa belə. Lakin Anar onu hərtərəfli “anlamazlar blokadasına” salıb. Xanımı Həcər, oğlu Eldar evdə, aktyor yoldaşları teatrda, radioda, televiziyada, bir sözlə hamı, hər yerdə onu incidir, əzir. Yazıçı, Feyzullanın xanımı Həcərin də timsalında fərqli,

[1] Алибекова Гюльрух. Искрящий родник духовности (К 60-летию Анара). Газета “Бакинский рабочий”, 1998, 14 марта, с. 5

çoxqatlı bir qadın obrazı yaradıb. Bütün əsər boyu elə təsəvvür yaranır ki, Feyzullanın əsas faciəsi elə Həcərdi. Bir Həcərin mehribançılığı ilə Feyzullanın yükü yüngülləşə, həyatı rahatlaşa bilərdi. Bununla belə, yəni bütün acıdil xasiyyətinə, Feyzullanın həyatını qəlizləşdirməyinə baxmayaraq, Həcər ailəsinin, oğlunun təəssübünü çəkən, onların qayğısına qalan bir qadın kimi qalır adamın yaddaşında.

Beləliklə, "Dantenin yubileyi" əsəri ilə Anar müxtəlif xarakterli insanları bir süjet ətrafında birləşdirir. Komplekslər içərisində yaşayan və qisasını almaq istəyən Eldar, əslində daxilən rəhmli, yumşaq, qayğıkeş, amma dili acı, danışığı ötkəm olan Həcər, həyasız, praqmatik, acımasız aktyorlar Məcid, Cavad, Əlikram və bütün bunların mərkəzində duran qoca, ziyansız adam, ömrünü bacarmadığı işə sərf edən aktyor Feyzulla Kəbirlinski. Feyzulla Kəbirlinski yadımızda bütün bu adamlar tərəfindən incidilən, əzilən, aşağılanan, amma bununla belə nə teatra sevgisi, bağlılığı, nə də insansevərliyi dəyişilməyən nəcib insan kimi qalır.

Daha sonra Anar yaradıcılığının özəlliklərindən biri–təsvir etdiyi qısa zaman kəsiyində böyük hadisələri, mətləbləri göstərməsindən–yazıçının bəzi hekayələrində bəzən bir günün, bəzən bir neçə saatın, hətta bir anın içərisində qəhrəmanın xarakterini, mühitin panoramını, hadisələrin incəliklərini, mahiyyətini və ən əsası irəli sürdüyü ideyasını oxucusuna çatdıra bilməsindən danışılır. Bu ədəbi fakt "Bayram həsrətində","Ötən ilin son gecəsi", "Gürcü familiyası" hekayələrinin, eləcə də "Macal" povestinin vasitəsilə təsdiqlənir.

"Macal" povestinin təhlilinə geniş yer verilir: əsərin qəhrəmanı Fuadın ikili xarakterinin səbəbləri üzləşdiyi müxtəlif situasiyalar və Anarın digər əsərləri, xüsusilə də "Əlaqə" povesti ilə müqayisədə açıqlanır.

"Macal" povestinin kuliminasiyası sonluqdadı. Yazıçı həmişəki gözlənilməz sonluğu ilə oxucunu çaşdırır, heyrətləndirir. Fuad kimi bir adamın karyerası üçün həlledici məqamda iclası buraxıb valideynlərinin yanına qayıtması müxtəlif cür yozula bilər. Bizə görə, əsas açar əsərin epiqrafındadır – "Dao-şen (V əsrin birinci yarısı) fəlsəfəsində əsas maddə, həqiqətin birdən-birə, qəfildən dərk edilməsi fikridir"[1]. Əsərin içərisində yazıçı bu haqda cəmisi bir cümlə ilə eyham vurur oxucusuna... Deyir– Oqtay Fuada Zen-buddizm haqda kitab verdi, Fuad yatmazdan qabaq vərəqlədi, amma atdı qırağa, oxumadı. Yəqin ki, Oqtay Fuada bu kitabı boşuna verməyib, oxuyub dəyişəcəyinə ümid edib hardasa, ən azı nələrisə anlayacağına inanıb.

[1] Anar. Əsərləri: 10 cilddə, II c., Bakı: Nurlan, 2003, s. 363

Anarın əsərlərindəki bütün irreal hadisələr tamamilə real həyat mənzərələrinin fonunda cərəyan edir. Lakin dünyanı, həyatı, insanı rasional şüurla izah etmək mümkün deyil. Ekzistensial düşüncənin əsasını təşkil edən bu fikir yazıçının yaradıcılığında "Əlaqə" povesti ilə yanaşı, "Qırmızı limuzin", "Vahimə" hekayələrində, "Otel otağı" romanında da özünü göstərir. Lakin onu da vurğulamaq lazımdır ki, ekzistensializm cərəyanının bir çox başqa elementləri – insanın tənhalığı, özünə qapılması, mühitlə, cəmiyyətlə yadlaşması məsələləri yazıçının digər əsərlərində də, az ya çox şəkildə nəzərə çarpır. Bu mənada insan və zaman qarşılıqlı münasibətləri, bunların bir-birinə təsiri, fərdin öz içində gəzintiləri, mühitlə "küsüb barışmaları", qabarma-çəkilmələri Anar yaradıcılığının əsasını təşkil edir, ilk hekayələrindən başlanğıc götürür, hər əsərində bir cür ifadə olunur və ən nəhayət hələlik sonuncu yazdığı "Göz muncuğu" povestində bütün çoxqatlılığı ilə oxucuya təqdim edilir.

Araşdırmalar Anar üçün yaxşı insanın, pis insanın deyil, "özünəməxsus" insanın olduğunu təsdiqləyir. Müəllifə görə, hər adam ayrılıqda fərddir və sonacan özünə sadiqdir. Yəni Təhminənin bütün yaşadıqlarından sonra mühitə tabe olub "başıaşağı" qadına çevrilməsi, ya da Feyzullanın xanımı Həcərin ərinə rəhmi gəlib şirin dil, ipək kimi yumşaq həyat yoldaşı olması, yaxud Fuadın karyerasından əl çəkib mənəvi aləmdə yaşaması mümkünsüzdü. Bir sözlə, yazıçı öz qəhrəmanlarına ayrı yolun da varlığını göstərir, amma onların öz yolları ilə getməsini həm təbii bir həyat hadisəsi, həm də dərin bir fəlsəfi məsələ kimi ifadə edir.

II fəslin **"Müstəqillik dövrü Anar nəsrində milli problemlərin təcəssümü, yeni dövr insanının iç dünyası"** adlı II yatımfəslində Anarın Sovet dövrü yaradıcılığında gələcəyin adamı olan, zamanı qabaqlayan qəhrəmanların totalitar ölkədə əzab içində yaşamalarına diqqət yönəldilir və səbəblərinə aydınlıq gətirilir. Başlıca səbəb, ilk baxışdan fərqli taleləri yaşayan qəhrəmanların ümumi problemi – azad olmayan cəmiyyət, mühit ilə əlaqələndirilir. Bildirilir ki, Təhminə də, Nemət də, Zaur da, Kəbirlinski də, Fuad Salahlı da, Əsmər də, Oqtay da və onlar kimi neçə-neçə başqa insan da mühitin, zəmanənin "qurbanları" idilər. Bu mənada Anarı zamanla yanaşı addımlayan və zamanı qabaqlayan, onun tələblərini hansısa önduyumla görüb hiss edən yazıçı hesab etmək olar. Adını sadaladığımız qəhrəmanların nəsrə, ədəbiyyata gətirilməsi, bir insanın dərdinin, probleminin önə çəkilməsi zamanın tələbi idi. Oxucu hansısa fövqəladə hadisələri, dəhşətli olayları, böyük hərflərlə yazılan qəhrəmanı yox, özünü, öz problemini axtarırdı ədəbiyyatda. Bu dövrü araşdıran alimlərin də yazdıqları kimi, belə bir zamanda altmışıncılar nəslinin, həmçinin həmin nəslin nümayəndələrindən biri olan Anarın bu mövzulara müraciəti, adi adamı ədəbiyyata

gətirməsi ciddi və zəruri ədəbi-tarixi hadisə idi. Şair Ramiz Rövşən Anarın müstəqillik dövrü yaradıcılığını çox dəqiq analiz edir: "İndi-indi aydın olur ki, qapalı, konserv bankasında olduğu kimi yaşadığımız dünyadan başqa bir dünya da varmış və budur, qapaq açıldı, amma açıqlığa çıxan insan heç də yüngülləşmədi, qol-qanad açmadı, daha xoş yaşamadı, başqa əndişələr, başqa dərdlərlə üzləşdi[1]".

90-cı illərin əvvəllərindən 20 yanvar hadisəsi, Xocalı faciəsi, Qarabağ müharibəsi yazıçının yaradıcılığına təsirsiz ötüşmədi. Bu mövzularda saysız-hesabsız məqalələr, esselər yazan, çıxışlar edən, "Şəhidlər dağı" adlı kitab buraxan müəllif "Vahimə", "Qırmızı limuzin" kimi gərgin-psixoloji əsərlər qələmə alır. Bir az keçmiş yazıçı qısa müddətlik qardaş Türkiyəyə üz tutur, Memar Sinan Universitetində dərs deyir və bu mühitdə gördüklərini "fon" olaraq istifadə edərək, yenə Azərbaycanın dərdlərini əks etdirən "Otel otağı" adlı faciəvi roman, "Muhakkak görüşürüz" adlı satirik əsər yazır. Növbəti onilliyə, XXI əsrin əvvəllərinə nəzər salsaq, Azərbaycanın Avropa ilə daha da yaxınlaşması, qloballaşan dünyanın gətirdiyi problemlər – dəyərlərin itməsi, gənclərin kitabdan, ədəbiyyatdan uzaq düşməsi, internetin kütləşdirdiyi nəslin problemləri Anarı ziyalı kimi narahat edir və o yenə də ustadı Mirzə Cəlilin üsulu ilə bütün bu dərdlər haqda güldürə-güldürə yazmağa, düşündürməyə üstünlük verir – "Kim Dali, yaxud yaşasın söz azadlığı", "Nə yemisən, turşulu aş", "Yay gecəsinin röyası" satirik əsərlərini qələmə alır. Eyni zamanda 2000-ci illərin əvvəllərində dünyanın böyük dövlətlərinin Azərbaycana susaması, qonşularımızın torpaq hərisliyi yazıçını rahat buraxmır, onu "Ağ qoç, qara qoç" kimi əsəriylə həyəcan təbili çalmağa vadar edir. Son illərdə yazdığı əsərlər də həmçinin bu silsilələrin davamı kimi qavranılır. Yazıçı yenə də gənclərin biganəliyindən, çağdaş mühitin naqis cəhətlərindən narahatlığını ifadə edən "Ağlım başıma gəldi", "Bir sən, bir mən, bir ölüm" hekayələrini, "Molla Nəsrəddin 110 il sonra" satirik silsiləsini yazır. Bu siyahının davamı kimi "Göz muncuğu" romanı artıq Anar yaradıcılığında həm də yeni bir mərhələnin başlanğıcı olaraq qəbul edilə bilər. Son illərdə dünyada gedən prosesslər, şərin – müharibələrin, terror aktlarının tüğyan etməsi yazıçını bu məsələyə bəşəri müstəvidən yanaşmağa vadar edir. Və o, bu əsərində əzəli bir Xeyir-Şər mübarizəsi probleminə şəxsi yanaşmasını, baxışını ortaya qoyur. Sadaladığımız əsərlərin ayrı-ayrılıqda təhlilinə keçməzdən öncə onu vurğulamaq yerinə düşər ki, sadəcə elə bu statistik məlumatlar da yazıçının

[1] Ровшан Рамиз. Воздухоплаватель. Лаврова Людмила. Знакомый Незнакомец. Баку: "Азернешр", 2008, с.169

mövqeyini, əsərlərinin zamanla nəfəs almasını göstərir. Yəni fikrimizcə, Anara görə ədəbiyyat nə həyatdan, nə də tarixdən ayrıdır. Ədəbiyyat hansısa real problemləri həll etməsə də, yaralara "məlhəm" olmağa, diqqəti hər hansı dərdə yönəltməyə, insanları bu haqda düşündürməyə kömək edə bilər.

Anarın müstəqillik illərində yazdığı ilk əsəri "Qırmızı limuzin"dir. Bu hekayə 1991-ci ildə, bunun ardınca 93-94-cü illərdə "Vahimə", "Muhakkak görüşürüz", "Otel otağı", "İlin fəsilləri yaxud qovluğun içindəkilər" əsərləri yazılıb. Əslində Anarın digər əsərlərində də mistik hadisələr hansısa şəkildə, bəzən bir detalla, bəzən sonluqla, yaxud bir fraqmentlə ifadə olunur. "Qırmızı limuzin" və "Vahimə"də mistik hadisələrin ictimai səbəbləri var. Yəni bu əsərlərdə bir insanın, fərdin daxilində, həyatında baş verən izaholunmaz hadisələrin "baiskarı" millətin faciəsi, ölkənin problemidir. "Əlaqə" povestinin qəhrəmanı Tələbəni, "Qırmızı limuzin" hekayəsinin qəhrəmanı Onu və "Vahimə"nin qəhrəmanı həkim Orucu birləşdirən əsas, ümumi cəhət şablonlarla yaşamaları, fərdiyyətçilikləri, cəmiyyətdən, dünyadan təcrid edilmiş həyatda rahat, xoşbəxt olmağın mümkünlüyünə inanmalarıdır.

Standart həyatla, standart ölçülərlə, qəliblərlə yaşayan bu adamlar birdən-birə izaholunmazla, qəribəliklə qarşılaşanda sarsılır və alışdıqları həyat məcrasından çıxırlar.

"Qırmızı limuzin" hekayəsindən O. kimi tanıdığımız adamla "Təqib" filminin baş qəhrəmanı Osman eyni adamlardır. Süjet də, hadisələrin axarı da eynidir, oxşardır. Lakin ideya başqadır.

Anarın başqa bir əsərinin – "Vahimə" hekayəsinin qəhrəmanı da dünyanın anlaşılmaz vahimələrindən qurtulmağın, yolunu rahat və əziyyətsiz ölümdə görür. Daha doğrusu, qarşılaşdığı hadisələr, başına gələn mistik olaylar onu bu yerə gətirib çıxarır.

Azərbaycan MEA-nın müxbir üzvü, professor Nizami Cəfərov "Azərbaycan ədəbiyyatının komandanı" məqaləsində Anarın Qarabağ problemini ictimai dərddən fərdin ağrısına çevirməsini vurğulayır: "Qarabağ psixozu! Anarın qəhrəmanları, onu ictimai ağrıdan daha çox fərdi ağrı kimi – bədənin, ürəyin, beynin ağrısı kimi hiss edirlər.

Dağılmış, əraziləri istila olunmuş, əhalisi dərbədər düşmüş, iqtisadi çətinliklərə məruz qalmış bir cəmiyyətin insanı, təbii ki, xoşbəxt ola bilməz, normal mənəvi- psixoloji həyat yaşaya bilməz, onun ruhi fəlakəti başlar ki, bu, ölümdən də betərdir"[1].

---

[1] Cəfərov Nizami. Azərbaycan ədəbiyyatının komandanı // "Azərbaycan" jurnalı, 2008, № 3, s.19

Anarın "Otel otağı" əsərinin qəhrəmanı Kərim Əskəroğlu da millətinin, taleyini düşünür, onun başına gətirilən müsibətlərdən əzab çəkir. Yazıçı bu povestində 90-cı illərin əvvəllərindəki Türkiyə və Azərbaycan mühitini, vəziyyətini paralel təsvir edir. Eyni zamanda artıq vurğuladığımız kimi, müharibənin gətirdiyi ağrı-acını bir ailənin, bir insan taleyinin timsalında göstərir. Əsərdə Otel otağının özü ayrıca bir obrazdır, çoxluğun içində özünü tək, tənha hiss edənlərin üz tutduğu ünvandır.

Akademik Rəfael Hüseynov "Sabah qatarının sərnişini" məqaləsində Anar haqqında yazırdı: "Dilin təmizliyinə çalışdı – "pantürkist" dedilər. Azərbaycanın keçmişini, dəyərlərini yerli-yataqlı tanıtmaq, təbliğ etmək üçün əlləşdi – "millətçi" dedilər. O indidir ki, bir adama "millətçi" demək onu öymək sayılır. Sovet əyyamlarında "millətçi" kəlməsi damğaya bərabərdi (öz aramızdır, o vaxt başqalarına söyüş əvəzi "millətçi" deyib, ləkələmək istəyənlərin çoxu bu deyim günümüzdə sərfəliləşəndə bir andaca çönub oldular ən atəşin "millətçi"lər. Anarsa elə həmin Anardı)"[1].

Əslində akademikin bu şərhini "Otel otağı" əsərinin açarı kimi də istifadə etmək olar. Buradakı yaşantıların bir hissəsi yazıçının Türkiyə həyatı, İstanbulda yaşadığı, dərs dediyi bir neçə ayla bağlıdı. Anar Azərbaycanın çətin günlərində Türkiyədə yaşadığı aylarda düşündüklərini, keçirdiyi halları, həmçinin qarşılaşdığı insanları "Otel otağı" əsərində dramatik cəhətdən qələmə alırsa, "Muhakkak görüşürüz" hekayəsində satirik şəkildə oxucuya təqdim edir.

Anarın yaradıcılığında mühüm yer tutan əsərlərindən biri də "Ağ qoç, qara qoç"dur. Akademik İsa Həbibbəyli "Ədəbiyyatımızın Anar zirvəsi" məqaləsində: "Ağ qoç, qara qoç" əsəri Azərbaycan ədəbiyyatının müstəqillik dərsi kimi səslənir"[2] – yazır. Anar özü isə hələ əsəri yazmazdan öncə esselərindən birində arzuladığı Azərbaycandan danışır: "Və inanıram ki, bu vətənin övladları əl-ələ verib çiyin-çiyinə, ürək-ürəyə, beyin-beyinə gələcəyin – XXI əsrin – Üçüncü Minilliyin Azad, Müstəqil ölkəsini, Bərabərliyin, Qardaşlığın və Dostluğun hökm sürəcəyi xoşbəxt Azərbaycanı quracaqlar. Xəyallarımda yaşatdığım, bəlkə də görə bilməyəcəyim bu gələcək Azərbaycanımın isə yuxarıda anlatmağa, izah etməyə çalışdığım beş təməl üzərində – İnsan Azadlığı, Milli Müstəqillik, sinfi, milli, irqi, dini, cinsi Bərabərlik, Türk Qardaşlığı, Xalqlar dostluğu – bünövrəsində

[1] Hüseynov Rəfael. Sabah qatarının sərnişini. "Zaman" qəzeti, Bakı, 1999, 5 yanvar, s.6

[2] Həbibbəyli İsa. Ədəbiyyatımızda Anar zirvəsi. "Yeni Azərbaycan" qəzeti, Bakı, 2004, 27 aprel, s.11

duracağını arzulayır, uca Tanrıdan diləyirəm”[1].

Elə bu nümunə gətirdiyimiz essedən də, digər əsərlərindən də, ümumi ictimai fəaliyyətindən də görünür ki, “Anarın azərbaycançılıqla bağlı mövqeyi Azərbaycan ziyalısının ideal düşüncə tərzidir. Bu, Azərbaycan ziyalısının dünyanı milli, irqi, dini maraqlarına görə idarə etmək istəyənlərə qarşı cavabıdır”[2].

Bu əsər “xəbərdarlıq” da adlandırılır–ölkənin başının üstünü almış təhlükələrdən, yaxud buraxdığımız səhvlərin verəcəyi acı nəticələrdən xəbərdarlıq. Əslində “Anar bu romanıyla yalnız Azərbaycanın deyil, bütün türk dünyasının gələcəyinə işıq tutur, bizləri xəbərdar edir”[3]. G.Pənahın da əsərlə bağlı qənaətləri reallığa söykənir və yazıçının xəbərdarlığının mahiyyətinə bir daha aydınlıq gətirir: “Azərbaycan xalqının başına bu günə kimi nə kimi bədbəxtçiliklər haradan gəlibsə, xalq bunu yaxşı bilir. Bunlardan ibrət dərsi götürməyən millət, vətən xainləri öz şəxsi mənafeləri naminə Azərbaycanın ərazi bütövlüyünə xələl gətirərsə, Anarın əsərində təsvir olunan üç zonaya–məhvə məhkum olunmuş zonalara bölünmüş Azərbaycan real həqiqətlərə daha çox yaxındır”[4]. Məhz bu təhlükələrdən qorxu, narahatlıq romanın hər cümləsində hiss olunur.

Yazıçının müstəqillik dövrü yaradıcılığının əsas problemi son illərdə yazdığı “Göz muncuğu” romanında başqa formada, səpkidə ortaya qoyulur. “Göz muncuğu” Anarın müstəqillik dövrü yaradıcılığına daxil olan üç böyük əsərinin (trilogiyanın!) üçüncüsüdür: “Otel otağı”, “Ağ qoç, qara qoç” və “Göz muncuğu”. Bu üç əsərə bir kontekstdən yanaşsaq, əsas təmaslaşan məqam, əlbəttə ki, zaman məfhunu–onların üçünün də müstəqillik dövründə yaranmasıdır. Artıq qeyd etdiyimiz kimi, bu dövrdə yaranan problemlər, xalqımızın başına gətirilən müsibətlər, müharibə, torpaq itkisi, xarici qüvvələrin təzyiqi, düşmənlərin müxtəlif yollarla “hücumları” yazıçını rahat buraxmayıb, bu əsərləri yazmağa vadar edib. Lakin, müəllifin zahirən eyni görünən problemə yanaşması artan xəttlə inkişaf edib, dəyişib. “Otel otağı”nda o problemin içərisindəki insan, “Ağ qoç, qara qoç”da yenə eyni dərdi yaşayan, təhlükəylə qarşı-qarşıya qalan bütöv millət, “Göz muncuğu”nda isə əbədi ŞƏRlə üz-üzə duran dünya ön plana çəkilmişdir.

---

[1] Anar. Əsrin əsiri. Bakı: Azərnəşr, 2010, s.41

[2] Xəlilov Buludxan. Azərbaycançılıq məfkurəsində yoğrulmuş yazıçı // “Azərbaycan” jurnalı, 2008, № 7, s. 167

[3] Ülkü İrfan. Ak koç, kara koç // “Orta Doğu” qazetesi, 2005, 2 eylül, s.13

[4] http://gulxani.net/ag_qoc_qara_qoc.htm)

Anar yaradıcılığının özünəməxsus ümumi keyfiyyətləri–müasirliyi və bəşəriliyi "Göz muncuğu" romanında da yer alıb. Əsərin əsas özəlliyi də onun müasirliyidir. Yazıçı özündən yeni fəlsəfə uydurmayıb, "heç kəsin bilmədiyini, demədiyini yazmalıyam" kimi iddiası da yoxdur. Elə hər fəslin əvvəlində gətirdiyi epiqraflarla mövzunun qədimliyini, min illərdən bəri ən müxtəlif ziya sahiblərini düşündürməsini, onların əsərlərində əks olunmasını göstərir.

Göz muncuğu tədqiqat işində rəmzi-simvolik, şərti-metaforik məna daşıyan element kimi dəyərləndirilir və əsərdəki obrazlar, Xeyirlə Şərin mübarizəsi də bu fonda təhlil edilir.

Tədqiqatın başlıca vəzifəsi Anarın nəsr əsərlərinin təhlili olsa da, araşdırma zamanı yazıçının çoxşaxəli yaradıcılığı bir bütöv kimi qavranılır. Onun dramaturgiya, publisistika, esseistika, kinoşünaslıq, naşirlik, poeziya sahəsindəki, eləcə də ictimai fəaliyyətinə toxunulur. Yaradıcılığının müxtəlif sahələri haqqında həmkarlarının, dövrün görkəmli ziyalılarının yüksək fikirləri nəzərdən keçirilir. Doğrudan da, əgər "Anar təkcə nəsr yazmaqla məşğul olsaydı, indi cildlərini yığıb-yığışdırmaq olmazdı; Anar özünü ancaq dramaturgiyaya həsr eləsəydi, indi ən məhsuldar dramaturqlardan biriydi; Anar kinonu başlıca yaradıcılıq hədəfi saysaydı, filmoqrafıyası indikindən qat-qat çox olardı... Amma Anar Mirzə Fətəlidən, Həsən bəy Zərdabidən, Mirzə Cəlildən, Üzeyir bəydən, Hüseyn Caviddən sonra... mədəniyyətimizdə yaranmış boşluğu imkanı daxilində doldurmağı qarşısına məqsəd qoyub"[1]. Sadə bioqrafik məlumatlara da baxanda məlum olur ki, o bu məqsədinə çatıb.

Anarın əsil sənətin təbliğatı yolunda gördüyü işlər təkcə ədəbiyyatla məhdudlaşmır. Musiqi, rəssamlıq, xalçaçılıq, miniatür və digər sahələri də əhatə edir. Bütün bu sadaladığımız və qeyd etmədiyimiz faktlar Anarın sənətə, sənətkara münasibətini, milli-mənəvi sərvətlərimizə qədrşünaslığını göstərən mühüm məqamlardır.

Araşdırmalar görkəmli yazıçı Ç.Abdullayevin bu qənaətində tamamilə haqlı olduğunu təsdiq edir: "Anar – yalnız yazıçı deyil, o, Azərbaycan mədəniyyətində hadisədir. Zəngin yaradıcı təbiəti, dünya mədəniyyətinə, ədəbiyyatına, müsiqisinə, incəsənətinə qeyri-adi bələdliyi ona bütün dünyada Azərbaycan mədəniyyətinin təbliğatçısı olmaq imkanı verir"[2]. Tədqiqatımız boyu müxtəlif millətlərdən tənqidçilərin, alimlərin,

---

[1] Əbdülrəhmanlı Nəriman. Anar. "Avropa" qəzeti, Bakı, 2003, 15-20 mart

[2] Абдуллаев Чингиз. "Зиялы" – это не просто интеллигент. Газета "Зеркало", 1998, 14 марта, с.4

yazıçıların, siyasətçilərin, fikir adamlarının Anar haqqında məqalələrindən, çıxışlarından gətirdiyimiz nümunələr bunu təsdiq edir.

Dissertasiyanın **"Nəticə"** hissəsində araşdırma zamanı irəli sürülmüş əsas müddəa və tezislər ümumiləşdirilərək belə bir yekun qənaət əldə edilmişdir ki:

– "Altmışıncılar nəsli", "altmışıncılar nəsri", yaxud, "altmışıncı illər ədəbiyyatı" adı altında yeni ədəbi mərhələnin meydana çıxmasının başlıca səbəbləri: 1. Ənənəyə–milli ədəbiyyatımızda XIX əsrin ikinci yarısından başlayan yeniləşmə meyllərinə sadiqlik; 2. Altmışıncı illər ədəbiyyatını yaradan yazıçı və şairlərin özlərinin yaradıcılıq təxəyyülü və təfəkküründə baş verən yeniləşmə amalı; 3. İctimai-siyasi mühit–1950-ci illərin əvvəllərindən SSRİ məkanında–Moskvada başlanan ideoloji "mülayimləşmə"nin Azərbaycan ədəbi mühitinə təsiri olmuşdur.

– Bu dövr ədəbi gəncliyinin başlıca xüsusiyyəti həm əsrin əvvəllərindən gələn Mirzə Cəlil, Sabir, Üzeyir Hacıbəyli ənənələrini, maarifləndirici ideyalarını davam etdirmələri, Səməd Vurğundan, Rəsul Rzadan, İlyas Əfəndiyevdən gələn milli özünüdərk, milli-mənəvi dəyərlərin tərənnümünə sadiqlik, həm də bütün bunları tamam yeni şəkildə, yeni formada, janrda təqdim etmələri idi.

– Yeni ovqatın və sadə insanın ədəbiyyata gətirilməsi, həyatiliyin artırılması, yazıçı-oxucu münasibətinin daha da sıxlaşması, real insan-bədii qəhrəman yaxınlaşması bu dövr ədəbiyyatının spesifikliyini təmin edən aspektlər olmuşdur.

–Anarın yaradıcılığında yer alan, əsərlərinə mövzu olan bütün məsələləri ümumiləşdirərək "İnsan və Zaman qarşıdurması" kimi yozmaq, təhlil etmək olar. Yazıçı həm öz vaxtına, həm də dünyanın, zəmanənin "vaxtına", bu gününə üsyan edən, bəzən barışmayan, bəzən təslim olan İNSANı yaradır.

– Anar insana xas olan bir çox problemləri oxucusuna çatdırmaqla bərabər, insanın içindəki, xarakterindəki təzadları, təbəddülatları da fərqli üsullarla təqdim edir. Bu mənada insan bəzən şəxsi həyatında, bəzən sadəcə öz daxili aləmində hansısa kataklizmlərlə üzləşir, amma çox zaman da bu kataklizmlər sosial və bəşəri problem, olay kimi qələmə alınır. Yazıçı bu problemləri taleyin və zamanın axarında bu insanların yaxşıya, ya mənfiyə doğru necə dəyişməsini, yaxud da heç dəyişməməsini göstərir.

– Anar zamanla bərabər addımlayan, çox vaxt da zamanı qabaqlayan yazıçıdır. Hələ sovet dövrü nəsrində müxtəlif formalar, janrlar, cərəyanlarla eksperimentlər etməsi, yeni-yeni elementləri ədəbiyyatımıza gətirməsi buna bariz nümunədir.

– İlk gənclik illərindən "balaca adamların" dərdindən, problemlərin-

dən bəhs edən yazıçı əslində bəşəri, əzəli mövzulara toxunub. Ölkəmizin müstəqillik qazanmasıyla isə onun yaradıcılığında daha əvvəllər də sezilən Azərbaycançılıq ideyası aparıcı xəttə, əsas ideyaya çevrilib. Həmçinin müstəqil ölkəmizin başına gətirilən bəlalar, Xocalı, Qara yanvar kimi faciələr, Qarabağ müharibəsi yazıçının müstəqillik dövrü nəsrində özünəməxsus şəkildə ifadə olunub.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıda qeyd olunan kitab və məqalələrdə öz əksini tapmışdır:**


1. Anar dünyası (monoqrafiya). Bakı: Elm və təhsil, 2015, 283 s.
2. Anar nəsrinin göz muncuğu//"Azərbaycan" jurnalı, 2014, №11, s. 57-63.
3. Anar yaradıcılığında məişət mövzuları fonunda milli-mənəvi dəyərlər. Bakı Dövlət Universitetinin yaranmasının 95 illiyinə həsr olunmuş Respublika elmi-nəzəri konfransının materialları / Bakı: BDU, 2014, s.176-180.
4. Anarın ilk hekayələrində qəhrəmanların fərdiliyi və yazıçının üslub xüsusiyyətləri // "Filologiya məsələləri" jurnalı, Bakı: Elm və təhsil, 2014, №7, s. 432-437.
5. Anar nəsrində Türkiyə// "Filologiya məsələləri" jurnalı, Bakı: Elm və təhsil, 2014, №10, s. 360-367.
6. Проблема героя в произведениях Анара "Обязательно увидимся" и "Номер в отеле"// Научный вестник Гилея // Киев, УАА, 2015, №12, с. 298-303.
7. Film gibi// Kardeş Kalemler dergisi. Ankara: Ofset basım, 2015, 98 sayı, s.17-23.
8. Anar nesrinin Nazar boncuğu// Kardeş Kalemler dergisi. Ankara: Ofset basım, 2015. 99 sayı. s. 81-86.
9. Nazım Hikmet Anarın kahramanı// Herfene dergisi. Ankara: Kış, 2015, 17 sayı, s. 35-44.
10. Anarın "Dantenin yubileyi" əsərinin ideya-bədii xüsusiyyətləri/ Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi Konfransının materialları. Bakı: Qafqaz Universiteti, 2015, s. 935-936.
11. Anarın "Gürcü familiyası", "Mən, Sən, O və telefon" hekayələrində zamanın və mühitin insan talelərinə təsiri// Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı: BDU, 2015, №1(93), s. 249-252.
12. Anar yaradıcılığında tənhalıq (Rəsul Rza və Nigar Rəfibəyli lirikası ilə müqayisədə) // "Azərbaycan" jurnalı. Bakı: 2017, №5, s.175-182.

13. Anarın “Ağ liman” povesti şəhər nəsrinin nümunəsi kimi// Ədəbiyyat Məcmuəsi. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Əsərləri, XXIX cild. Bakı: Elm, 2017, №1, s. 149-156.

**Parvin Ahmad gizi NURALIYEVA**

## Human being changing and non - changing in flow of destine and time cataclysms in the prose of Anar

### SUMMARY

The thesis researches comprehensively the influence of the destine and time cataclysms on human nature in the many-branched prose works of Anar, the well-known Azerbaijani writer, his language and style features, creative and art methods. The thesis consists of an Introduction, two chapters, conclusion and the list of references.

The "Introduction" provides all-inclusive information about subject's actuality, history of research, aims and duties of research, its object and subject, theoretical and methodological basis, scientific novelty and practical importance.

In the first chapter ("Prose of Anar in the context of 20th and 21st centuries Azerbaijani literature") the author thoroughly investigates the specificity of Anar's prose, as well as "the concept of new man, The philosophy of solitude" in his prose. The author takes a good look at the history of the 60s years literature, reveals conditions giving birth to beginnings of this literature, its similar and different features in comparison with the previous periods. She provides detailed information about this period's novelties.

This chapter sheds light on the different aspects of creativity, as well as the creative features distinguishing Anar from writers of the same generation.

The second chapter ("Anar prose's human characters in the destine and time context") involves the various matters, such as: changing and non changing world of images and the embodiment of national problems in Anar's prose, as well as internal problems of the new period into the research through works of prose by Anar.

After being clarified, it is noted that the definition "cataclysm" is observed in the majority of prose works of Anar. This literary fact is approved through analysis of stories, such as: "Longing for the holidays", "Last night of the year", "Georgian surname" and "Chance".

The "Conclusion" summarizes the main provisions and thesis put forward while research.

**Парвин Ахмед гызы Нуралиева**

## Человек меняющийся и не подвергающийся изменениям в потоке катаклизмов, связанных с понятиями судьба и время в прозе Анара

## РЕЗЮМЕ

В диссертации системно и всесторонне анализируются влияние катаклизмов, связанных с понятиями судьба и время, на людские характеры, особенности языка и стиля, творческого метода и художественных средств в многостороннем творчестве видного азербайджанского писателя Анара. Диссертация состоит из введения, двух глав, заключения и списка использованной литературы.

В «Введении» дается информация относительно актуальности, объекта и предмета, теорико-методологических основ, научной новизны, практической значимости, целей и задач, преследуемых указанной темой.

В первой главе—«Проза Анара в контексте азербайджанской литературы XX и XXI столетий» всесторонне исследуются такие моменты, как своеобразие прозы писателя, «Концепция человека нового порядка. Философия одиночества» в ней. Здесь же рассматривается история литературы шестидесятых годов, предпринимается попытка объяснить причины ее появления, определить схожие черты и различия данной литературы от произведений, написанных ранее, дается информация об оригинальных особенностях сочинений. В этой главе автор старается внести ясность в отличительные творческие особенности прозаиков-шестидесятников и своеобразную манеру письма Анара, отличающую его от сверстников.

Во второй главе—«Человеческие характеры в прозе Анара относительно понятий судьба и время» привлечены к исследованию такие темы, как меняющийся и неизменный мир образов, проявление национальных проблем в прозе Анара периода независимости, а также вопросы, связанные с внутренней составляющей нового времени. Все вышеперечисленное анализируется посредством прозаических произведений писателя.

Автор указывает, что во многих сочинениях Анара, формирующих его прозу, предпринимается попытка разъяснить смысл такого явления, как «катаклизм». Данный литературный факт находит свое подтверждение в рассказах писателя: «В ожидании праздника», «Последняя ночь уходящего года», «Грузинская фамилия», а также в повести «Момент».

В «Заключении» обобщаются основные мысли и тезисы, выдвинутые в процессе исследования.

Kağız formatı: 60/84 16/1

Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУКАЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ им.НИЗАМИ ГЯНДЖЕВИ**

*На правах рукописи*

**ПАРВИН АЛАМДАР кызы НУРАЛИЕВА**

# МЕНЯЮЩЕЕСЯ И НЕИЗМЕННОЕ ВРЕМЯ В ПОТОКЕ КАТАКЛИЗМОВ, СВЯЗАННЫХ С ПОНЯТИЯМИ СУДЬБА И ВРЕМЯ В ПРОЗЕ АНАРА

**5716.01** – Азербайджанская литература

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание научной
степени доктора философии по филологии

**БАКУ – 2017**